

*Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən AZƏRBAYCANLIYAM.*

**Heydər Əliyev**

*Azərbaycan xalqının Ümummilli Lideri*

RÖVŞƏN RAQİFOĞLU

# AVROPADA AZƏRBAYCAN DİASPORU

*reallıqlar və perspektivlər*

- 345144 -

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı — Mütərcim – 2013

63.3 (0=Azə) + 63.3 (4)
M51

Elmi məsləhətçi və redaktor:
**Rəhilə Qeybullayeva**
*filologiya elmləri doktoru, professor*

Rəyçilər:
**Bədirxan Əhmədli**
*filologiya elmləri doktoru, professor*

**Nizami Məmmədov**
*filologiya elmləri doktoru, professor*

**Şahbaz Musayev**
*filologiya üzrə fəlsəfə doktoru*

**Heydər Orucov**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

R.R.Məmmədov. Avropada Azərbaycan diasporu (reallıqlar və perspektivlər). – Bakı: Mütərcim, 2013. – 312 səh.

Kitabda Azərbaycan diasporunun Avropada yayım coğrafiyasını, xaricdə yaşayan soydaşlarımızın milli – mənəvi dəyərlər və azərbaycançılıq ideologiyası uğrunda mübarizə metodlarını, diasporumuzun tarixi və bu günku inkişaf istiqamətlərini əks etdirən elmi faktlar, təhlillər, analitik xarakterli materiallar yer alır. Zəngin mədəniyyətə, adət - ənənəyə, tarixə malik Azərbaycan diasporunun Avropada fəaliyyət strategiyasını araşdırmaq, soydaşlarımızı düşündürən və narahat edən problemləri təhlil etməklə, mövcud perspektivləri və gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək kitabın əsas məqsədidir.

Monoqrafiya diaspor sahəsi üzrə elmi araşdırma aparan tədqiqatçılar və ali məktəblərin müvafiq fakültələrinin tələbələri üçün dəyərli elmi mənbə sayıla bilər.

ISBN: 978-9952-28-122-4

© R.R.Məmmədov, 2013

# MÜNDƏRİCAT

Ön söz ........ 4
GİRİŞ ........ 6

**I FƏSİL. Avropada Azərbaycan diasporu: tarix və müasirlik** ........ 13
1.1. Avropada Azərbaycan diasporunun yaranma tarixi ........ 17
1.2. Müasir dövr Avropada Azərbaycan diasporu ........ 40

**II FƏSİL. Avropada Azərbaycan diasporunun mətbu fəaliyyəti** ........ 101
2.1. Mühacirət mətbu orqanları ........ 103
2.2. Diaspor mətbu orqanları ........ 121

**III FƏSİL. Azərbaycançılıq ideyası: tarix və müasirlik** ........ 162
3.1. Diaspor mətbuatı milli maraqların və mənəvi dəyərlərin təbliğatçısı kimi ........ 166
3.2. Ideoloji prosesin formalaşması və inkişafında diaspor mətbuatının rolu ........ 183

**IV FƏSİL. Avropada Azərbaycan diasporunun internet resursları** ........ 213
4.1. Avropada Azərbaycan cəmiyyətləri və internet ........ 215
4.2. Azərbaycan diasporunun kütləvi informasiya vasitələri və internet ........ 224

Nəticə ........ 231
Əlavələr ........ 239
Ədəbiyyat siyahısı ........ 300

## ÖN SÖZ

*Hörmətli oxucu, diqqətinizə təqdim olunan bu kitab müasir dövr beynəlxalq münasibətlər sistemində, ideoloji fəaliyyət prinsip-lərinin düzgün, məqsədyönlü şəkildə həyata keçirilməsində önəmli rolu ilə seçilən Azərbaycan diasporunun yaranma və inkişaf tarixin-dən bəhs edir. Müstəqil Azərbaycan Respublikasının milli – mənəvi dəyərlərindən sayılan diasporumuz bu gün özünün inkişaf dövrünü yaşayır desək, yəqin ki, yanılmarıq. Xaricdə yaşayan soydaşlarımı-zın ictimai-siyasi, ideoloji, mədəni sahələrdə qazandığı uğurlar, dünyanın demək olar ki, bütün ölkələrində yaradılan cəmiyyət və ic-timai birliklərimizin aktiv fəaliyyəti, əldə olunan nailiyyətlər bunu deməyə əsas verir. Bir zamanlar diqqətsizlik üzündən tamamilə unudulmuş, pərakəndə və yalnız öz maraqları uğrunda çalışan soy-daşlarımız artıq vahid ideoloji dəyərlər, ümummilli prinsiplər, müs-təqilliyimizin qorunması, adət - ənənələrin, tarixi faciələrin obyektiv şəkildə təbliğ olunması istiqamətində yorulmadan mübarizə aparır.*

*Əsası milli lider Heydər Əliyev tərəfindən qoyulmuş azərbay-cançılıq ideologiyasını özünün fəaliyyət proqramı kimi qəbul edən Azərbaycan diasporu təbliğatçılıq işini daha effektli şəkildə və key-fiyyətlə həyata keçirmək üçün cəmiyyət və ictimai birliklər yaradır, qəzet və jurnalların dərcinə, hətta radio və televiziya orqanlarının açılmasına nail olur. Bu gün beynəlxalq münasibətlər sistemində baş verən ictimai – siyasi hadisələrə operativ reaksiyası, ədalətli mövqeyi ilə seçilən diasporumuz Azərbaycan Respublikasını düşün-dürən və narahat edən problemləri, dövlətimizin müxtəlif sferalarda əldə etdiyi uğurları dünya miqyasında təbliğ etməklə konkret nəticə-lər ortaya qoyur.*

*Azərbaycan Respublikasının diasporumuzun formalaşması və inkişafı istiqamətində rolu isə əvəzsizdir. Öz fəaliyyətini müstəqil respublikanın dəstəyi və inamı, doğma Vətən amili ilə daha da tək-milləşdirən diaspora təbliğatçılıq işini bir qədər də uğurlu və məq-sədyönlü şəkildə qurmağa çalışır. Dövlətin bu istiqamətdə Azərbay-can diasporuna verdiyi dəstək isə ilk növbədə Bakıda Dünya Azər-baycanlılarının Qurultaylarının təşkili, ölkədə Diasporla İş üzrə*



*Dövlət Komitəsinin yaradılması, Dünya Azərbaycanlılarının Həm-rəylik Xartiyasının qısa zaman ərzində işlənib hazırlanması, dövlət başçılarının xarici ölkələrə istər rəsmi, istərsə də qeyri rəsmi səfər-ləri zamanı soydaşlarımızla mütəmadi olaraq görüşməsi, Azər-baycan diasporu amilinin ölkədə fəaliyyət göstərən qurumların, kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olması, dünya azərbaycanlılarının aktiv üzvlərinin respublika prezidenti səviyyə-sində qəbulu, onların xüsusi dövlət mükafatları, orden və medallarla təltif olunması və digər bu kimi dəyərli addımlar, əməli işlərlə izah oluna bilər.*

*Nəticə göz qabağındadır. Bu gün Azərbaycan diasporu müda-fiədən hücum taktikasına keçib. Soydaşlarımız dünyanın inkişaf et-miş ölkələrində müxtəlif səviyyəli tədbirlər, təbliğat xarakterli görüşlər keçirməklə müstəqil Azərbaycan Respublikasının möv-qeyini, əsas dövlətçilik prinsiplərini ortaya qoyurlar. Əldə olunan uğurlar, diaspor problemlərinin həlli istiqamətində istər dövlət, istər qeyri hökumət təşkilatları, istərsə də vətəndaş cəmiyyəti səviy-yəsində atılan addımlar isə gələcəyə ümidlə baxmağa əsas verir. Bu gün dünya siyasətində qəti və məqsədyönlü addımlar atan Azərbay-can diasporunun təsir gücü, ideoloji fəaliyyət mexanizmi və bey-nəlxalq münasibətlər sistemində qazandığı nüfuz baxımından yaxın gələcəkdə kainatın aparıcı diaspor təşkilatlarından sayılacağı isə artıq şübhə doğurmur.*

*Düşünürük ki, Avropada Azərbaycan diasporunun yaranma tarixi və inkişaf istiqamətlərindən bəhs edən bu kitab da mövzu ilə bağlı oxucularda müəyyən təəssürat yaradacaq və diaspor mövzusu ilə maraqlanan gənc tədqiqatçılar üçün faydalı elmi mənbə olacaq. Odur ki, sizi kitabla baş-başa buraxır, uğurlar arzulayırıq.*

## GİRİŞ

Qədim yunan sözü olub, "dağılma", "səpələnmə" mənalarını ifadə edən "diaspora" (διασπορά) termini bu gün dünyanın xarici siyasətində və sosial münasibətlər sistemində geniş istifadə olunur. Bu da təsadüfi deyil. Fəaliyyət dairəsindən, məşğuliyyətindən və dini etiqadından asılı olmayaraq hər hansı bir etnosa aid adamların müəyyən zaman kəsiyində öz tarixi vətənlərindən kənarda məskunlaşması və ictimai fəaliyyət sferasında aktiv rolu ilə seçilməsi daim maraq dairəsində olub. Xüsusən də ideoloji işin və strateji təbliğat mexanizminin önəmli tərkib hissəsi olan diaspor məsələsi müstəqil dövlətlərin daim önəm verdiyi, formalaşmasına və inkişafına çalışdığı sahələrdəndir. İstər milli–mənəvi dəyərlərin uğurla təbliği, istər dünya dövlətləri ilə sıx münasibətlərin qurulması, istərsə də xarici siyasət sahəsində konkret nəticələrin əldə olunmasında diasporun rolu əvəzsizdir.

Bu gün "Azərbaycan diasporu" dedikdə xarici ölkələrdə məskunlaşmış azərbaycanlılar nəzərdə tutulur. "Xaricdə yaşayan azərbaycanlılar" anlayışının təfsiri "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Bu qanuna əsasən, "xaricdə yaşayan azərbaycanlılar" anlayışı Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına və onların övladlarına, əvvəllər Azərbaycan SSR-inin və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş və hazırda ölkə hüdudlarından kənarda yaşayan şəxslərə, onların övladlarına, bu kateqoriyaya aid olmayan, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü Azərbaycana bağlı və ya azərbaycanlı hesab edən şəxslərə aid edilir.

Tarixə müraciət etsək görərik ki, soydaşlarımızın xaricə axını XX əsrin əvvəllərində daha geniş vüsət almağa başlamışdı. Qafqazda çar Rusiyasının antimüsəlman və antitürk siyasəti məqsədli şəkildə regionda azərbaycanlı əhalinin üstün mövqeyinin zəifləndilməsinə yönəlmiş və 1905-1906, 1918-ci illərdə ermənilər tərəfindən həyata keçirilən soyqırım, etnik təmizləmə siyasəti də belə məkirli strateji niyyətlərdən törənmişdir

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından sonra mühacirət dalğasının miqyası xeyli azalsa da, demokratik respublikanın süqutu tamamilə yeni bir situasiya formalaşdırdı. Xalq Cümhuriyyətinin qurucularının və tərəfdarlarının bolşeviklər tərəfindən ciddi təzyiqlərə və təqiblərə məruz qalması onları ölkəni tərk etmək məcburiyyətində qoyurdu. Təsadüfi deyil ki, bu dövr azərbaycanlıların xaricə axınının ən kütləvi miqyasda təzahür etdiyi mərhələlərdən birini təşkil edir.

Qeyd olunan tarixi hadisələr və siyasi proseslər səbəbindən xaricə üz tutmaq məcburiyyətində qalmış soydaşlarımız zaman – zaman formalaşaraq daha güclü və təşkilatlanmış qüvvəyə çevrilməyə, müstəqillik, milli – mənəvi dəyərlər uğrunda inamla mübarizə aparmağa nail oldular. Görülən işlərin məntiqi yekunu olaraq 1949-ci il fevralın 1-də Türkiyənin Ankara şəhərində "Azərbaycan Kültür Dərnəyi"nin təsis edilməsi dünyada Azərbaycan diasporunun təşkilatlanması sahəsində ilk addım oldu. 1956-cı ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli təhlükəsizlik naziri işləmiş Nağı bəy Şeyxzamanlının oğlu Saleh bəy Şeyxzamanlı ABŞ-da "Amerikanın Azərbaycan cəmiyyəti"ni təsis etdi. Hazırda bu cəmiyyətin sədri Saleh bəy Şeyxzamanlının nəvəsi Tomris Azəridir. Bu hadisələr Azərbaycan diasporunun tarixində təşkilatlanma mərhələsinin məhz ötən əsrin ortalarından başladığını söyləməyə əsas verir. Həmin dövrə qədər soydaşlarımızı birləşdirən icma və birliklərin yaradılması ilə bağlı hər hansı fakta təsadüf olunmamışdır.

Azərbaycanlıların mühacirət dalğasının növbəti mərhələsi II Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Müharibə dövründə və sülhün bərqərar olunmasından sonra xaricdə yaşayan həmvətənlərimizin sayı əhəmiyyətli dərəcədə artdı. Bunlar hərbi əməliyyatlar zamanı əsir düşənlər və müharibədən sonra müxtəlif səbəblər üzündən Avropa ölkələrində məskunlaşan azərbaycanlılar idi. Sovet rejiminin amansız və qəddar cəza mexanizmləri, qanlı represiyaları

onların bir çoxunu geri qayıtmaqdan çəkindirmiş, beləliklə xaricdə yaşayan azərbaycanlıların sayca artmasına səbəb olmuşdu.

Qeyd etmək lazımdır ki, təxminən 30 milyon azərbaycanlının tarixən yaşadıqları İran ərazisindən də son onilliklər ərzində mühacirət edənlərin sayı Azərbaycan Respublikasından gedənlərin sayından qat-qat çox olmuşdur. Ümumiyyətlə, II Dünya müharibəsindən bir neçə il sonra Sovetlər hökumətinin tətbiq etdiyi sərt sərhəd rejimi bütövlükdə SSRİ-dən xaricə axının qarşısını alsa da, dissident hərəkatı əvvəlkilərlə müqayisədə daha kütləvi xarakter almışdı. Təbii ki, Sovet Respublikası olan Azərbaycan üçün də belə bir təhlükə var idi. Lakin SSRİ-də dissident hərəkatının, azad fikrin genişləndiyi bir dövrdə - 1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başladı. O, respublikanın həyatında, ictimai şüurun, milli özünüdərkin təşəkkülündə yeni bir mərhələnin özülünü qoydu.

Azərbaycan heç vaxt qürbətdə yaşayan övladlarını unutmamışdır. Sovet-kommunist ideologiyasının hakim olduğu dövrdə mövcud siyasi reallıqlar diaspor problemi ilə milli – ideoloji zəmində açıq və sistemli şəkildə məşğul olmağa imkan verməsə də, mədəniyyət, incəsənət, elm sahəsində ciddi iş aparılır, respublikamızın nailiyyətləri təbliğ edilir, dünya azərbaycanlılarının tarixi Vətənlə əlaqəsinə xidmət edəcək imkanlardan səmərəli istifadə olunurdu. Ötən əsrin 70-80-ci illərində Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev böyük uzaqgörənliklə bütün qətiyyət, müdriklik və cəsarətini xalqın tarixi yaddaşının qorunmasına, Azərbaycanın bütün dünyada tanınmasına yönəltmişdi[31, s.98].

Həmin dövrün mövcud siyasi reallıqları diaspor problemi ilə milli ideoloji zəmində açıq və sistemli şəkildə məşğul olmağa imkan verməsə də, mədəniyyət, incəsənət, elm sahəsində ciddi iş aparılır, respublikamızın nailiyyətləri təbliğ edilir, dünya azərbaycanlılarının Vətənlə əlaqəsinə xidmət edəcək hər bir imkandan istifadə olunurdu. Xarici ölkələrlə mədəni əlaqələrin güclənməsi, tərcümə işinin vüsətlənməsi, xaricdə yaşayan həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr cəmiyyətinin ("Vətən" cəmiyyəti) yaradılması həmvətənlərimizin birliyinə və Vətənlə əlaqəsinə xidmət edən belə



mühüm addımlardan idi. İlk növbədə isə respublikamızın hərtərəfli inkişafı həmvətənlərimizdə milli qürur hissi oyadaraq onlarda ana yurda maraq və bağlılığı artırırdı.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının elmi-intellektual potensialının gücləndirilməsi məsələlərinə həmişə böyük diqqətlə yanaşırdı. Məhz elə bu diqqətin sayəsində onun rəhbərliyi dövründə yüzlərlə həmvətənimiz SSRİ-nin ən nüfuzlu təhsil ocaqlarında təhsil almaq imkanı əldə etmişdilər. Belə ki, keçmiş SSRİ məkanının 50-dən çox böyük şəhərinin 170-dən artıq ali təhsil ocağın--da elm, iqtisadiyyat, mədəniyyət, istehsalat və digər sahələri əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən artıq ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc təhsil almış və yüksək ixtisaslara yiyələnmişdir. Əlbəttə, bu kadrların bir çoxu yenidən Azərbaycana qayıtmış və respublikanın ümumi inkişafına öz töhfələrini vermişdilər. Lakin onların bir qismi təhsil aldıqları şəhərlərdə məskunlaşmışdı. Bir sözlə, 70-80-ci illərdə sovet dövlətində gedən inteqrasiya prosesləri, gənclərimizin digər respublikalarda təhsil almaları onların miqrasiyasına təkan vermişdir. Respublikamızdan kənarda əmək fəaliyyətinə başlayan həmin mütəxəssislər bir tərəfdən həmvətənlərimizin mütəşəkkilliyinin güclənməsinə, digər tərəfdən elm və mədəniyyətimizin inkişafına yardım göstərmişlər. Dünya azərbaycanlılarında milli şüurun güclənməsində Heydər Əliyevin Moskvada Sovet dövlətinin rəhbərlərindən biri kimi fəaliyyətinin də xüsusi rolu olmuşdur. Həmvətənlərimiz milli liderimizin dünya miqyaslı siyasi fəaliyyətini milli idrak və xarakterin parlaq təzahürü kimi qəbul edir, xalqımızın özünə inamı, özünüdərki və mütəşəkkilliyi güclənirdi.

Ötən əsrin 80-ci illərinin sonlarında SSRİ məkanında cərəyan edən hadisələr isə imperiyanın sərhədləri çərçivəsində demokratik düşüncə tərzinin genişlənməsinə və milli azadlıq hərəkatlarının alovlanmasına stimul yaratmış oldu. Azərbaycanda bu proses daha sürətlə getməyə başlamışdı. Təsadüfi deyil ki, 1989-cu ildə azərbaycanlılar "dünyanın ən mübariz xalqı" adına layiq görülmüşdülər. Erməni seperatçılarının ölkəmizin ayrılmaz tərkib hissəsi olan Dağlıq

Qarabağ ərazisində həyata keçirməyə başladığı təxribatlar xalqımızın milli oyanışında, milli özünüdərk hissinin güclənməsində mühüm rol oynadı.

1990-cı il 20 Yanvar hadisələri Azərbaycan xalqının milli bütövlüyünü təsdiqləyən ən böyük hadisələrdən biri kimi tarixin yaddaşına əbədi həkk edilmişdir. Bu faciə xalqı yumruq kimi birləşdirdi və bütün dünya azərbaycanlılarının gücünü ifadə edirdi. Belə bir mürəkkəb və çətin vəziyyətdə 20 Yanvar qırğını ilə bağlı Moskvada vətəndaş qeyrəti və həqiqi vətənpərvərlikdən doğan cəsarətli bəyanatı ilə Heydər Əliyev dünya azərbaycanlılarını ayağa qaldırdı, xalqın siyasi iradəsini ifadə və bəyan etdi. Dünya azərbaycanlılarını bir millət kimi mütəşəkkilliyinə təkan verən bu bəyanat həmvətənlərimizi xalqın taleyi üçün tarixi məsuliyyəti daşımaq qüdrətində olan yeganə siyasi xadim və milli lider ətrafında birləşdirdi.

Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, beynəlxalq əlaqələrin yüksək səviyyədə qurulmasında diasporun əhəmiyyətini xüsusi qeyd edən milli liderin ABŞ, Almaniya, Fransa, Türkiyə, Böyük Britaniya, Rusiya, Çin və digər ölkələrə işgüzar səfərlərində oradakı həmvətənlərimizlə görüşlərdə səsləndirdiyi fikirlər həm ölkə vətəndaşları, həm də Azərbaycan diasporu üçün səmərəli fəaliyyət proqramı kimi bu gün də xüsusi önəm kəsb edir. Bu baxımdan, milli birliyin ilk növbədə mənəviyyat, məfkurə birliyi olduğunu təsbit edən H.Əliyevin 1996-cı ilin iyulunda Almaniyaya səfəri zamanı Bonn şəhərindəki soydaşlarımızla görüşdə dediyi sözlər bu gün də öz aktuallığını saxlayır: "...mən demirəm ki, azərbaycanlıların hamısı bir yerə yığışsın, bu heç lazım da deyil. Ancaq hamımızın qəlbi, fikri, gələcəyə baxışı və Azərbaycan haqqında düşüncələri bir olsa, əlbəttə, respublikamız müstəqilliyini bundan sonra da möhkəmləndirər, inkişaf yolunu məharətlə keçə bilər... Mən Azərbaycan Prezidenti kimi, xalqımızın mənə göstərdiyi etimada güvənərək respublikamıza rəhbərlik edən şəxs kimi deyirəm: Azərbaycanın özündə də bu günümüzün, gələcəyimizin zəmanəti, rəhni birlikdir və bütün dünyada da soydaşlarımızın bir olması vacibdir" [1, s. 5-6].



Məhz Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycan Respublikası dünya azərbaycanlılarının mənafe və maraqlarının təminatçısı olduğunu rəsmən bəyan etdi və məhz milli lider ilk dəfə olaraq, xaricdə yaşayan azərbaycanlılarla dövlət səviyyəsində sistemli iş aparmağa başladı. Bu fəaliyyətin nə qədər ciddi və geniş miqyaslı olduğunu "Xaricdə Yaşayan Azərbaycanlılarla bağlı Dövlət Siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi bir daha təsbit etdi. 27 dekabr 2002-ci il tarixli fərman diasporçuluq siyasətinin həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsaslarını müəyyən etdi. Qanunda Azərbaycan diasporu ilə bağlı təsbit olunmuş maddələrin effektivliyinin artırılması, diasporumuzun təşkilatlanması, dünya azərbaycanlılarının birliyinin yaranması, dövlətimizin bu sahədə apardığı siyasətin təbliğinə nail olmaq kimi konkret məqsəd və vəzifələr yer alır.

Aparılan məqsədyönlü və səmərəli işlərin, çoxsaylı görüşlərin məntiqi nəticəsidir ki, indi dünyanın ən müxtəlif guşələrində yaşayan soydaşlarımızın Vətənlə bağlılıq hissi daha da güclənib. Diaspor nümayəndələrimiz gözəl başa düşürlər ki, mənsub olduqları xalqın dövləti var və bu dövlət onlarla maraqlanır. Qısa zaman kəsiyində dünyanın bir çox ölkələrində – Avropada, Şimali Amerikada, MDB məkanında artıq mütəşəkkil cəmiyyətlərin, təşkilat və ocaqların yaradılması prosesi başlanıldı. Təsadüfi deyil ki, hazırda dünyanın 63 ölkəsində 200-dən çox Azərbaycan icma və birliyi fəaliyyət göstərir və diasporumuzun təşkilatlanma prosesi bu gün də uğurla davam etdirilir.

Ayrı-ayrılıqda fəaliyyət göstərən çoxsaylı cəmiyyət və birliklər iş birliyi naminə bir araya gələrək Azərbaycan federal birlikləri yaratmağa başladılar. Bunların sırasında Ümumrusiya Azərbaycan Konqresini, Ukrayna Azərbaycanlıları Konqresini, Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyətini, Almaniya Azərbaycan Cəmiyyətləri Federasiyasını, İsveç - Azərbaycan Federasiyasını, Qazaxıstan, Qırğızıstan və Özbəkistan azərbaycanlılarının "Turan" Konqresini və Qırğızıstanda "Azəri" İctimai Birliyini nümunə göstərmək olar. Bu cəmiyyət və birliklər fəaliyyət göstərdik-

**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**

